# BAĞIŞLA MƏNİ EŞŞƏK

Mən də bir çox insanlar kimi ömrüm boyu səni pisləmişəm. Qanmaz insanı sənə bənzətmişəm. Anlamayana eşşək demişəm. İnsanların haqqlarını ayaqlayanlara və onların doğru səsini eşitmək istəməyənlərə sənin adını vermişəm.
Görəsən varmı sənə olan bu qədər ədalətsizliyi və zülmü anlayan bir insan?!
Mən ancaq anlamışam.
Biz insanlar nədən sənə qanmaz demişik?
Buna görə ki, sənə özündən ağır yük çatmışıq və özümüz də o yükün üstündə oturub və səndən dördnala çapmaq istəmişik! Sən bunu bacarmayanda səni dəyənək ilə vurmuşuq, ucu iti bizlə boynunu dəlik-dəlik edib yaralamışıq!

Qızmar yay günlərində ağır yük altında, qan tər tökə-tökə gedərkən, yol qırağında bir bulaqdan bir qurtum sərin su içmək istədiyin zaman dəyənəyimizlə yorğun canına düşmüşük!
“Eşşəkdir anlamır, qanmır” demişik!
Heç bir dəfə də olsun özümüzdən soruşmamışıq ki, nədən bu heyvan bizim üçün yük daşımalıymış! Bir zaman dağlarda, ormanlarda sərbəst yaşayan bir heyvanı tutub ömrünün sonuna dək nədən işgəncə edirik!

Sən xəstə olub yükümüzü daşıya bilməyəndə də, qocalıb əldən-ayaqdan düşəndə də, səni çöllərə buraxmışıq ki, ya canavarlar yesin səni, ya acından öləsən, ya da soyuqdan donasan!
Bu da ömrün boyu bizə işlədiyin və hər işgəncə və zülmümüzə dözdüyün üçün sənə təşəkkürümüz olmuşdur Eşşək!

İndi bax gör kim qanmazdır, kim anlamazdır, kim haqlıdır, kim haqsızdır, kim bizim işlətdiyimiz anlamda “eşşək” dir. Sən ya biz insanlar?
Tək sən deyilsən ki, bizim haqsızlığımıza, zülmümüzə tuş olan və bizim bunu heç bir zaman bilmək istəmədiyimiz.

Bayquşa uğursuz demişik. Hansı dama qonarsa, ora fəlakət, ölüm gələr, viran olub dağılar demişik; heç deməmişik ki, insanların evlərini xarabalığa çevirən, onları diyar-diyar didərgin salan bayquşmudur yoxsa biz insanlarmı?!

Yaltaqlıq üzündən başqasını yamsılayan insanı meymuna bənzətmişik. Halbuki, insanları yamsılayan meymunun işi heç də yaltaqlıq deyil. Bu meymunun öyrənmə bacarığıdır. Buna görə də yamsılamaq insanın əskikliyi və meymunun üstünlüyüdür.

Biz insanlar bütün heyvanlar haqqında zülm etmişik Eşşək! Biz sizin dilinizi öyrənməyə çalışmamışıq, istək və arzularınızı anlamamışıq, ağrılarınızı duymamışıq.

Mən bir daha səni pisləməyəcəyəm. Mən bir daha pis insanlara sənin nəcib adını verməyəcəyəm. Mən bir daha sənin səssiz ağrılarına göz yummayacağam.

Mən, mənim kimi düşünən bütün insanlar adından demək istəyirəm ki, bağışla məni Eşşək!

1990. Bonn